**Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 9.1-ci "Auditə dair kitabların, broşürlərin, metodiki vəsaitlərin və s. hazırlanması və nəşri" bəndinin icrası barədə**

# HESABAT

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin şəffaflığın artırılması və maliyyə nəzarətinin gücləndirilməsi sahəsində proqram xarakterli tövsiyələrini rəhbər tutaraq, "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanunundan, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnamədən, Auditorlar Palatasının Beynəlxalq Mühasiblər Federasiyası (IFAC) qarşısında üzvlük öhdəliklərindən və "Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf Konsepsiyası"ndan (2021-2030-cu illər) irəli gələn vəzifələrin icrasının təmin edilməsi məqsədilə və Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü Il üzrə iş planının 9.1-ci " Auditə dair kitabların, broşürlərin, metodiki vəsaitlərin və s. hazırlanması və nəşri" maddəsinin icrası ilə əlaqədar 2024-cü ilin ötən dövrü ərzində aşağıdakı metodit vəsaitlər hazırlanmış və nəşrlər hazırlanmışdır:

**METODİK MATERIALLAR:**

1. "Sosial auditə dair metodik vəsait" (Auditorlar Palatası Şurasının 2024-cü il 09 aprel tarixli 364/6 nömrəli qərarı ilə bəyənilmişdir).

Bu metodik vəsait "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunundan, "Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyası"ndan (2021-2030-cu illər) irəli gələn vəzifələrin, Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 1.2.1-ci "Sosial auditə dair metodik vəsaitin hazırlanması" bəndinin icrasını təmin etmək, habelə müstəqil maliyyə nəzarəti sahəsində mütərəqqi dünya təcrübəsini öyrənmək və milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla ölkəmizdə tətbiqini genişləndirmək məqsədilə Auditorlar Palatasının sədri, professor Vahid Novruzov, sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Q.Əhmədov tərəfindən hazırlanmışdır.

Metodik vəsaitin hazıtlanmasında məqsəd ənənəvi iqtisadi inkişaf modelindən dayanıqlı inkişaf modelinə keçid şəraitində qeyri-maliyyə, ekoloji, sosial və digər amilləri ehtiva edən hesabatlılıq sisteminin qurulması və bununla əlaqədar inteqrə olunmuş hesabatlılıqla uzlaşan nəzarətin, o cümlədən müstəqil auditin əsaslarının işlənib hazırlanması, auditin yeni növ və istiqamətlərinin tətbiqi hesabına auditor xidməti bazarının genişləndirilməsi, sosial auditin inkişaf etdirilməsidir.

. Auditorlar Palatası Şurasının 2024-cü il 09 aprel tarixli 364/6 nömrəli qərarı ilə "Sosial auditə dair metodik vəsait" bəyənilmiş və qərara alınmışdır ki:

-. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tövsiyə edilsin ki, təsərrüfat subyektlərinə auditor xidmətləri göstərərkən "Sosial auditə dair metodik vəsait"dən yararlanmaqla yeni auditor xidməti növü olan sosial auditin aparılmasına diqqət yetirsinlər.

-Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, 2024-cü ilin II rübündə "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi." şirkətinin Azərbaycan Respublikasındakı filialı ilə birlikdə auditor təşkilatları və sərbəst auditorlar üçün "Sosial auditə dair metodik vəsait" barədə seminarın keçirilməsi təmin edilsin.

- Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, "Sosial auditə dair metodik vəsait"in auditorların 2024-cü il üzrə ixtisasartırma kurslarının tədris proqramına daxil olunması təmin edilsin.

- Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, iki həftə müddətində "Sosial auditə dair metodik vəsait"in auditor təşkilatları və sərbəst auditorlara elektron qaydada göndərilməsi təmin edilsin.

- Bu qərarın və "Sosial auditə dair metodik vəsait"in mətnləri Auditorlar Palatasının internet səhifəsində və "auditorun şəxsi kabineti" sistemində yerləşdirilsin.

Qeyd: Palatası Şurasının 2024-cü il 09 aprel tarixli 364/6 nömrəli qərarı ilə müəyyən edilmiş işlər vaxtında icra edilmişdir.

2. "Azərbaycan Respublikası Auditorlar Palatasının inzibati xətaya dair protokol tərtib etmək səlahiyyətinin icra proseduruna dair Təlimat" " ( Auditorlar Palatası Şurasının 2024-cü il 09 aprel tarixli 364/5 nömrəli qərarı ilə bəyənilmişdir).

Bu Təlimat Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı", Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 noyabr tarixli 466 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnzibati xəta haqqında protokolun, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarın və inzibati xəta haqqında işin aidiyyəti üzrə göndərilməsi barədə qərardadın Formaları", Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 25 iyul tarixli 305 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnzibati xəta haqqında protokol, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərar (qərardad) blanklarının aidiyyəti orqanların sifarişi əsasında hazırlanması, saxlanılması, uçotu və təqdim edilməsi Qaydaları"na uyğun olaraq Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsi (E.İbrahimov) tərəfindən hazırlanmışdır.

"Azərbaycan Respublikası Auditorlar Palatasının inzibati xətaya dair protokol tərtib etmək səlahiyyətinin icra proseduruna dair Təlimat" Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi Azərbaycan Respublikası Prezidentinin 2017- ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı", Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 18 noyabr tarixli 466 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnzibati xəta haqqında protokolun, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərarın və inzibati xəta haqqında işin aidiyyəti üzrə göndərilməsi barədə qərardadın Formaları",

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 25 iyul tarixli 305 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnzibati xəta haqqında protokol, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərar (qərardad) blanklarının aidiyyəti orqanların sifarişi əsasında hazırlanması, saxlanılması, uçotu və təqdim edilməsi Qaydaları"na uyğun olaraq Azərbaycan Respublikası Milli Məclisinin 1995-ci il 19 sentyabr tarixli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnamə"nin 2.7-ci yarımbəndinin sonuncu abzasından irəli gələn auditor xidməti göstərən şəxslərə münasibətdə öz səlahiyyətləri daxilində qanunla nəzərdə tutulmuş qaydada və hallarda cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı nəzarət orqanının funksiyalarını həyata keçirilməsini təmin etmək məqsədi ilə hazırlanmışdır.

"Azərbaycan Respublikasının Auditorlar Palatasının inzibati xətaya dair protokol tərtib etmək səlahiyyətinin icra proseduruna dair Təlimat" bəyənilsin (əlavə olunur). 2. Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsi (E.İbrahimov) tərəfindən bu "Təlimat"ın tətbiqi və ona riayət edilməsi "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq olaraq təmin edilsin. 3. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, iki həftə müddətində bu "Təlimat"ın auditor təşkilatları və sərbəst auditorlara göndərilməsi təmin edilsin. 4. Bu qərarın və "Təlimat"ın mətnləri Auditorlar Palatasının internet səhifəsində və "auditorun şəxsi kabineti" sistemində yerləşdirilsin.

"Azərbaycan Respublikası Auditorlar Palatasının inzibati xətaya dair protokol tərtib etmək səlahiyyətinin icra proseduruna dair Təlimat" Auditorlar Palatası Şurasının 2024-cü il 09 aprel tarixli 364/5 nömrəli qərarı ilə bəyənilmiş və qərara alınmışdır ki:

- Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsi (E.İbrahimov) tərəfindən bu "Təlimat"ın tətbiqi və ona riayət edilməsi "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə müvafiq olaraq təmin edilsin.

- Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, iki həftə müddətində bu "Təlimat"ın auditor təşkilatları və sərbəst auditorlara göndərilməsi təmin edilsin.

- Bu qərarın və "Təlimat"ın mətnləri Auditorlar Palatasının internet səhifəsində və "auditorun şəxsi kabineti" sistemində yerləşdirilsin.

Qeyd: Palatası Şurasının 2024-cü il 09 aprel tarixli 364/5 nömrəli qərarı ilə müəyyən edilmiş işlər vaxtında icra edilmişdir.

3. "Auditor təşkilatlarında daxili nəzarətin təşkili və həyata keçirilməsinə dair nümunəvi Qaydalar" (Auditorlar Palatası Şurasının 2024-cü il 3 iyul tarixli 367/3 nömrəli qərarı ilə bəyənilmiş və tətbiqi məqsədəmüvafiq hesab edilmişdir).

Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 8.3-cü "Auditor təşkilatlarında daxili nəzarətin təşkili və həyata keçirilməsinin monitorinqi və təhlili" bəndinin icrasını təmin etmək məqsədilə Auditorlar Palatasının sədri, professor Vahid Novruzovun rəhbərliyi ilə Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov və Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinin müdiri Z.Almazov tərəfindən hazırlanmış bu qaydanın məqsədi auditor təşkilatlarında daxili nəzarətin təşkili və həyata keçirilməsi üzrə metodoloji bazanın hazırlanması və onun tətbiqi vasitəsilə auditor təşkilatlarında daxili nəzarət sisteminin ölkə qanunvericiliyinə, Auditorlar Palatasının üzv olduğu Beynəlxalq Mühasiblər Federasiyasının tələblərinə və Palatanın direktiv göstərişlərinə müvafiq olaraq müasir daxili nəzarət sisteminin yaranmasına nail olmaqdır.

: “Auditor təşkilatlarında daxili nəzarətin təşkili və həyata keçirilməsinə dair nümunəvi Qaydalar" Auditorlar Palatası Şurasının 2024-cü il 3 iyul tarixli 367/3 nömrəli qərarı ilə bəyənilmiş və tətbiqi məqsədəmüvafiq hesab edilmiş və qərara alınmışdır ki:

-Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki, öz fəaliyyətlərində “Auditor təşkilatlarında daxili nəzarətin təşkili və həyata keçirilməsinə dair nümunəvi Qaydalar”ın tətbiq edilməsini təmin etsinlər.

- Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, 2025-ci ilin I rübündə auditor təşkilatları və sərbəst auditorlar üçün “Auditor təşkilatlarında daxili nəzarətin təşkili və həyata keçirilməsinə dair nümunəvi Qaydalar” mövzusunda seminarın keçirilməsi təmin edilsin.

- Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, iki həftə müddətində “Auditor təşkilatlarında daxili nəzarətin təşkili və həyata keçirilməsinə dair nümunəvi Qaydalar”ın auditor təşkilatları və sərbəst auditorlara elektron qaydada göndərilməsi təmin edilsin.

- Bu qərarın və “Auditor təşkilatlarında daxili nəzarətin təşkili və həyata keçirilməsinə dair nümunəvi Qaydalar”ın mətnləri Auditorlar Palatasının internet səhifəsində və “auditorun şəxsi kabineti” sistemində yerləşdirilsin.

-Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

Qeyd: Palatası Şurasının 2024-cü il 3 iyul tarixli 367/3 nömrəli qərarı ilə müəyyən edilmiş işlər vaxtında icra edilmişdir.

4. “Audit meyarları” (Auditorlar Palatası Şurasının 2024-cü il 3 iyul tarixli 367/2 nömrəli qərarı ilə bəyənilmiş və tətbiqi məqsədəmüvafiq hesab edilmişdir).

Bu material Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 1.2.5-ci "Auditor xidmətinin effektivlik meyarlarının hazırlanması" bəndinin icrasını təmin etmək, habelə müstəqil maliyyə nəzarəti sahəsində mütərəqqi dünya təcrübəsini öyrənmək və milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla ölkəmizdə tətbiqini genişləndirmək məqsədilə işçi qrupu – Auditorlar Palatasının sədri, professor Vahid Novruzov, Sədrin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov və Auditin

innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Qoşqar Əhmədov tərəfindən hazırlanmışdır.

Materialda göstərilmişdir ki, audit riskləri müəyyən etmək və qiymətləndirmək, məlumatların bütövlüyünü və etibarlılığını təmin etmək üçün təşkilatın maliyyə hesabatlarının müstəqil şəkildə qiymətləndirilməsi prosesidir. Auditin məqsədi maraqlı tərəfləri təşkilatın maliyyə vəziyyəti və fəaliyyəti haqqında etibarlı məlumatlarla təmin etməkdir. Auditin uğurla aparılması üçün səmərəlilik, keyfiyyət, müstəqillik, səriştə və etika meyarlarına cavab vermək lazımdır. Auditor audit nəticələrinin etibarlılığını və obyektivliyini təmin etmək üçün müstəqil, səriştəli və etikalı olmalıdır. Auditin aparılması üçün müvafiq meyarların müəyyən edilməsi uğurlu nəticənin əsasını təşkil edir. Meyarlar auditin məqsədinə uyğun olmalı, maraqlı tərəflərlə razılaşdırılmalı, həm də ölçülə və yoxlanıla bilən olmalıdır. Audit meyarları sifarişçinin fəaliyyətini (sistemlərin və təcrübələrin adekvatlığını və qənaətliliyini, əməliyyatların səmərəliliyini və nəticəliliyini) qiymətləndirməyə imkan verən göstəricilərdir. Audit meyarları tanınmış və nüfuzlu mənbələr əsasında hazırlanmalı, obyektiv, müvafiq, ağlabatan və əldə edilə bilən olmalıdır. Mümkün qədər obyektiv olmaqla, subyektiv şərh üçün imkan minimuma endirilməlidir. Hər bir audit – yoxlama predmetinin meyarlar üzrə qiymətləndirilməsidir. Uyğun meyarların müəyyənləşdirilməsi audit uğurunun açarıdır. Meyarlar müəyyən edilmədən həyata keçirilən prosedurlar nəticəsiz qala və nəzərdə tutulan audit nəticəsi əldə olunmaya bilər. Auditorun peşəkar mühakiməsi kontekstində, audit tapşırığının əsaslandırılmış ölçülməsi və ya qiymətləndirmənin aparılması üçün müvafiq meyarlar tələb olunur.

“Audit meyarları” Auditorlar Palatası Şurasının 2024-cü il 3 iyul tarixli 367/2 nömrəli qərarı ilə bəyənilmiş və tətbiqi məqsədəmüvafiq hesab edilmiş və qərara alınmışdır ki:

-Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tövsiyə edilsin ki, öz fəaliyyətlərində “Audit meyarları”ndan istifadə edilməsini diqqət mərkəzində saxlasınlar.

- Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, 2025-ci ilin I rübündə auditor təşkilatları və sərbəst auditorlar üçün “Audit meyarları” mövzusunda seminarın keçirilməsi təmin edilsin.

- Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, “Audit meyarları”na dair materialın auditorların 2025-ci il üzrə ixtisasartırma kurslarının tədris proqramına daxil olunması təmin edilsin.

- Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, iki həftə müddətində “Audit meyarları”na dair materialın auditor təşkilatları və sərbəst auditorlara elektron qaydada göndərilməsi təmin edilsin.

- Bu qərarın və “Audit meyarları”na dair materialın mətnləri Auditorlar Palatasının internet səhifəsində və “auditorun şəxsi kabineti” sistemində yerləşdirilsin.

- Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

Qeyd: Palatası Şurasının 2024-cü il 3 iyul tarixli 367/2nömrəli qərarı ilə müəyyən edilmiş işlər vaxtında icra edilmişdir.

5. “İstixana qazlarının uçotunun əsasları (Dayanıqlı inkişafla bağlı açıqlamalara dair MHBS standartları əsasında)” adlı Təlimat (Auditorlar Palatası Şurasının 2024-cü il 30 sentyabr tarixli 368/11 nömrəli qərarı ilə bəyənilmiş və nəşri məqsədəmüvafiq hesab edilmişdir).

“İstixana qazlarının uçotunun əsasları (Dayanıqlı inkişafla bağlı açıqlamalara dair MHBS standartları əsasında)” adlı Təlimatın Azərbaycan Respublikası Prezidentinin proqram xarakterli göstərişlərini rəhbər tutaraq, müstəqil maliyyə nəzarəti sahəsində qabaqcıl dünya təcrübəsini öyrənmək və ölkəmizdə tətbiqini genişləndirmək məqsədilə, Pakistanın İmtiyazlı Mühasiblər İnstitutu (ICAP) və Auditorlar Palatası arasında 2023-cü il dekabrın 1-də imzalanmış Anlaşma Memorandumuna əsasən birgə əməkdaşlıq çərçivəsində, habelə Palatanın 2024-cü il üzrə iş planının 7.5-ci “Xarici ölkələrin audit və mühasibat qurumları ilə əlaqələrin genişləndirilməsi” və 7.6-cı “Əməkdaşlıq haqqında niyyət protokollarında, sazişlərdə və anlaşma memorandumlarında nəzərdə tutulmuş tədbirlərdən irəli gələn vəzifələrin icrasının təmin edilməsi” bəndlərinə uyğun olaraq hazırlanmışdır.

“İstixana qazlarının uçotunun əsasları (Dayanıqlı inkişafla bağlı açıqlamalara dair MHBS standartları əsasında)” adlı Təlimat Auditorlar Palatası Şurasının 2024-cü il 30 sentyabr tarixli 368/11 nömrəli qərarı ilə bəyənilmiş və nəşri məqsədəmüvafiq hesab edilmiş və qərara alınmışdır ki:

-Auditorlar Palatası sədrinin müşaviri F.Qarayevə və Maliyyə və texniki təminat idarəsinə (B.Abbasov) tapşırılsın ki, on gün müddətində “İstixana qazlarının uçotunun əsasları (Dayanıqlı inkişafla bağlı açıqlamalara dair MHBS standartları əsasında)” adlı Təlimatın 300 (üç yüz) nüsxədə nəşr olunması təmin edilsin.

- Auditorlar Palatası sədrinin müşaviri F.Qarayevə tapşırılsın ki, iki həftə müddətində “İstixana qazlarının uçotunun əsasları (Dayanıqlı inkişafla bağlı açıqlamalara dair MHBS standartları əsasında)” adlı Təlimatın aidiyyəti dövlət qurumlarına, habelə Azərbaycan Respublikası Prezidentinin kitabxanasına, Auditorlar Palatasının əməkdaşlıq etdiyi qurumlara, Palatanın üzvləri və əməkdaşlarına siyahı əsasında paylanması təmin edilsin.

- Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tövsiyə edilsin ki, öz fəaliyyətlərində “İstixana qazlarının uçotunun əsasları (Dayanıqlı inkişafla bağlı açıqlamalara dair MHBS standartları əsasında)” adlı materialın tətbiq edilməsini təmin etsinlər.

- Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, 2024-cü ilin IV rübündə auditor təşkilatları və sərbəst auditorlar üçün “İstixana qazlarının uçotunun əsasları (Dayanıqlı inkişafla bağlı açıqlamalara dair MHBS standartları əsasında)” adlı Təlimata dair seminarın keçirilməsi təmin edilsin.

- Bu qərarın və Təlimatın mətnləri Auditorlar Palatasının internet səhifəsində və “Auditorun şəxsi kabineti” sistemində yerləşdirilsin.

Qeyd: Palatası Şurasının 2024-cü il 30 sentyabr tarixli 368/11 qərarı ilə müəyyən edilmiş işlər vaxtında icra edilmişdir.

6. “Fasiləsiz (davamlı) audit” adlı metodoloji material ” (Auditorlar Palatası Şurasının 2024-cü il 30 sentyabr tarixli 368/4 nömrəli qərarı ilə bəyənilmiş və tətbiqi məqsədəmüvafiq hesab edilmişdir).

“Fasiləsiz (davamlı) audit” adlı metodoloji material “Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyasına” (2021-2030-cu illər) uyğun olaraq və Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 1.2.6-cı "Fasiləsiz (davamlı) auditin aparılmasının normativ hüquqi və metodoloji əsaslarının yaradılması" bəndinin icrası ilə əlaqədar Auditorlar Palatasının sədri, professor Vahid Novruzovun rəhbərliyi ilə Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin sabiq rəisi Q.Əhmədov tərəfindən hazırlanmışdır.

Fasiləsiz auditin məqsədi - vaxtında nəzarəti təmin etmək üçün fasiləsiz audit sisteminin tətbiqi, qəbul edilən idarəetmə qərarlarının səmərəliliyinin artırılmasına yeni imkanlar yaratmaqdır.

"Fasiləsiz (davamlı) audit” adlı metodoloji material Auditorlar Palatası Şurasının 2024-cü il 30 sentyabr tarixli 368/4 nömrəli qərarı ilə bəyənilmiş, tətbiqi məqsədəmüvafiq hesab edilmiş və qərara alınmışdır ki:

-Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tövsiyə edilsin ki, öz fəaliyyətlərində fasiləsiz (davamlı) auditin tətbiq edilməsini təmin etsinlər.

-Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, 2025-ci ilin I rübündə auditor təşkilatları və sərbəst auditorlar üçün “Fasiləsiz (davamlı) audit” mövzusunda seminarın keçirilməsi təmin edilsin.

-Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, iki həftə müddətində “Fasiləsiz (davamlı) audit” adlı metodoloji materialın auditor təşkilatları və sərbəst auditorlara elektron qaydada göndərilməsi təmin edilsin.

- “Fasiləsiz (davamlı) audit” adlı metodoloji material Auditorlar Palatasının internet səhifəsində və “Auditorun şəxsi kabineti” sistemində yerləşdirilsin və geniş oxucu kütləsi üçün nəzərdə tutulan “Audit. Yeni dövrün çağırışları” kitabının tərkibinə daxil edilsin.

Qeyd: Palatası Şurasının 2024-cü il 30 sentyabr tarixli 368/4 qərarı ilə müəyyən edilmiş işlər vaxtında icra edilmişdir.

7. Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslər tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakin leqallaşdirilmasına dair qanunvericiliyə riayət edilməsinin monitorinqinin aparilması barədə Qaydalar (Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2024-cü il 30 sentyabr tarixli 368/3 nömrəli qərarı ilə təsdiq edilmişdir).

“Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslər tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizəyə dair qanunvericiliyə riayət edilməsinin monitorinqinin aparılması barədə Qaydalar” "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli, “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 782-VIQ nömrəli Qanunlarına, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və digər normativ sənədlərə uyğun olaraq Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsi (E.İbrahimov) tərəfindən hazırlanmışdır.

“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunu, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsi hallarının aşkar edilməsi, qarşısının alınması və ölkənin iqtisadi sistemindən qeyri-qanuni məqsədlər üçün istifadə olunma imkanlarını istisna edən şəraitin yaradılması, bu istiqamətdə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin yerinə yetirilməsi, habelə dövlətin və cəmiyyətin maraqlarının qorunması məqsədilə effektiv ölkədaxili və beynəlxalq əməkdaşlığın həyata keçirilməsi ilə bağlı münasibətləri tənzimləyir. Eyni zamanda “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikasının Qanunu uyğun olaraq, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının aidiyyəti qətnamələrinə uyğun olaraq terrorçuluğun, terrorçuluğun maliyyələşdirilməsinin, kütləvi qırğın silahlarının yayılmasının və kütləvi qırğın silahlarının yayılmasının maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə hədəfli maliyyə sanksiyalarının tətbiqinin hüquqi əsasını və qaydasını müəyyən edir. ƏL/TMM haqqında Qanunun 16.1.6 bəndinə uyğun olaraq Azərbaycan Respublikasının Auditorlar Palatasının auditor xidməti göstərən şəxslərə münasibətdə nəzarət orqanı funksiyasını həyata keçirir. ƏL/TMM haqqında, “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikasının Qanunları və digər normativ sənədlər ƏL/TMM ilə bağlı hüquqpozmaların aşkar edilməsi və qarşısının alınması üçün hüquqi mexanizmin yaradılmasına, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi məqsədi ilə maliyyə sistemindən istifadə olunması imkanlarını istisna edən şəraitin yaradılmasına, bu sahədə dövlətin və cəmiyyətin maraqlarının qorunmasına yönəlmişdir.

Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2024-cü il 30 sentyabr tarixli 368/3 nömrəli qərarı ilə "Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslər tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakin leqallaşdırılmasına dair qanunvericiliyə riayət edilməsinin monitorinqinin aparilması barədə Qaydalar" bəyənilmiş və qərara alınmışdır ki:

-Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov) tapşırılsın ki:

- “Azərbaycan Respublikasında auditor xidməti göstərən şəxslər tərəfindən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizəyə dair qanunvericiliyə riayət edilməsinin monitorinqinin aparılması barədə Qaydalar”a əsasən monitorinqin aparılması təsdiq olunmuş qrafik və ya rəhbərliyin qərarı ilə təmin edilsin;

- Bu Qaydalara əsasən monitorinqin keçirilməsi məqsədilə bir ay ərzində müfəttişlər qrupunun üzvləri üçün təlim keçirilsin.

-Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

Qeyd: Palatası Şurasının 2024-cü il 30 sentyabr tarixli 368/3 N-li qərarı ilə müəyyən edilmiş işlər vaxtında icra edilmişdir.

**NƏŞRLƏR**

1. "İstixana qazlarının uçotunun əsasları (Dayanıqlı inkişafla bağlı açıqlamalara dair MHBS standartları əsasında)" adlı Təlimat, 2024. (Auditorlar Palatası Şurasının 2024-cü il 30 sentyabr tarixli 368/11 nömrəli qərarı ilə bəyənilmiş və nəşri məqsədəmüvafiq hesab edilmişdir).

Təlimat barədə məlumat bu Hesabatın 5-ci bəndində ətraflı verilmişdir.

Təlimat nəşr edilmiş, müvafiq qurumlara təqdim edilmiş və Şura qərarında göstərilmiş bəndlər icra edilmişdir.

2. "Audit. Yeni dövrün çağırışları" kitabı (Azərbaycan Respublikasının Auditorlar Palatası Sədrinin 2024-cü il 28 noyabr tarixli 10-1/3-3-11/2024-li Sərəncamı) .

Kitab "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunundan, "Azərbaycan Respublikasında auditor fəaliyyətinin inkişaf konsepsiyası"ndan (2021-2030-cu illər), Auditorlar Palatasının 2023-2024-cü illər üzrə iş planlarının müvafiq bəndlərindən irəli gələn vəzifələrin icrasını təmin etmək, müstəqil maliyyə nəzarəti sahəsində mütərəqqi dünya təcrübəsini öyrənmək və milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla ölkəmizdə tətbiqini genişləndirmək, habelə ölkəmizdə keçirilmiş COP29 çərçivəsində audit peşəsinin və audit standartlarının inkişafının innovativ və strateji istiqamətlərini əhatə etməklə auditorlar və digər maraqlı şəxslər üçün Auditorlar Palatasının sədri, professor Vahid Novruzovun rəhbərliyi ilə sədrin elmi-metodik məsələlər üzrə müşaviri Nəcəf Talıbov və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin sabiq rəisi Qoşqar Əhmədov tərəfindən hazırlanmışdır.

Kitaba aşağıdakı materiallar daxil edilmişdir:

- "Qeyri-maliyyə hesabatlarının auditinin aparılmasına dair metodik vəsait" (Auditorlar Palatası Şurasının 2023-cü il 14 dekabr 09 tarixli 361/7 nömrəli qərarı ilə bəyənilmişdir).

- "Sosial auditə dair metodik vəsait" ( Auditorlar Palatası Şurasının 2024-cü il 09 aprel tarixli 364/6 nömrəli qərarı ilə bəyənilmişdir).

-"Audit meyarları" (Auditorlar Palatası Şurasının 2024-cü il 3 iyul tarixli 367/2 nömrəli qərarı ilə bəyənilmiş və tətbiqi məqsədəmüvafiq hesab edilmişdir).

-"Fasiləsiz (davamlı) audit" adlı metodoloji material " (Auditorlar Palatası Şurasının 2024-cü il 30 sentyabr tarixli 368/4 nömrəli qərarı ilə bəyənilmiş və tətbiqi məqsədəmüvafiq hesab edilmişdir).

Palata sədrinin 2024-cü il 28 noyabr tarixli 10-1/3-3-11/2024 N-li “Audit. Yeni dövrün çağırışları” kitabının nəşri və aidiyyəti üzrə paylanılması barədə SƏRƏNCAMı ilə qərara alınmışdır ki:

-Auditorlar Palatası tərəfindən “Audit. Yeni dövrün çağırışları” kitabının 600 nüsxədə nəşrinin təmin edilməsi nəzərə alınsın.

- 600 nüsxədə nəşr olunmuş “Audit. Yeni dövrün çağırışları” kitabının 45 ədədinin aidiyyəti dövlət qurumlarına və ali təhsil müəssisələrinə, 400 ədədinin Palatanın üzvlərinə, 50 ədədinin Palatanın əməkdaşlarına, 2 ədədinin Palatanın kitabxanasına və 2 ədədinin Palatanın arxivinə müvafiq siyahı əsasında paylanılması məqsədəmüvafiq hesab edilsin və 50 ədədi satış üçün nəzərdə tutulsun (siyahı əlavə olunur).

- Palatanın İctimaiyyətlə əlaqə və informasiya şöbəsinə (M.Hüseynova) tapşırılsın ki, bu sərəncamın 2-ci bəndindən irəli gələn məsələləri həll etsin.

- Palatanın Maliyyə və texniki təminat idarəsinin rəisi vəzifəsini müvəqqəti icra edən B.Abbasova tapşırılsın ki, “Audit. Yeni dövrün çağırışları” kitablarının uçotunun müvafiq qaydada aparılmasını təmin etsin.

- Bu sərəncamın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

Qeyd: Palata sədrinin 2024-cü il 28 noyabr tarixli 10-1/3-3-11/2024 N-li sərəncamında nəzərdə tutlan işlər yerinə yetirlimişdir.

**Palata sədrinin eilmi-metodik**
**məsələlər üzrə müşaviri** **Nəcəf Talıbov**